# Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası və Suriya Gəmiçilik Palatası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu

Bundan sonra «Tərəflər» adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası və Suriya Gəmiçilik Palatası,

Tərəflər arasında dəniz nəqliyyatı sahəsində dostluq əlaqələrini inkişaf etdirmək, dəstəkləmək və əməkdaşlığı gücləndirmək məqsədi ilə,

Tərəflər arasında dəniz ticarəti əlaqələrinin inkişafına töhfə verməyi arzulayaraq,

bərabərlik, qarşılıqlı maraq və beynəlxalq hüquq prinsipləri əsasında,

aşağıdakılar barədə razılığa gəldilər:

## *Maddə 1*

1. Tərəflər, milli qanunvericiliklərinə uyğun olaraq, daimi əməkdaşlığın inkişaf etdirilməsi və saxlanılmasına yönəlmiş cəhdlərini davam etdirəcəklər. Hər iki Tərəf əməkdaşlıq imkanlarının həyata keçirilməsi məqsədilə, xüsusilə dənizçilik sahəsində nəşrlərin, sənəd və məlumat mübadiləsinin və məsləhətləşmələrin aparılması üzrə razılığa gəlirlər.

2. Tərəflər səlahiyyətləri çərçivəsində dəniz əlaqələrinin inkişaf etdirilməsi üzrə bir-birlərinə yardım göstərmək barədə razılığa gəlirlər. Bu məqsədlə, Tərəflər onların gəmiçilik, əlaqəli müəssisə və təşkilatları arasında əlaqələrin və əməkdaşlığın inkişafını təşviq etdirəcəklər.

3. Dəniz əlaqələrinin inkişafına yardım məqsədi ilə ölkələrində olan ticari ənənələr, dəniz qanunvericiliyi və dəniz iqtisadiyyatının vəziyyəti barədə müntəzəm məlumat mübadiləsi aparılacaqdır.

4. Aşağıda göstərilən üsullarla ikitərəfli əməkdaşlığı artırmaq çərçivəsində müntəzəm görüşlər və qarşılıqlı səfərlər təşkil olunacaqdır;

- əlaqəli fəal dənizçilik şirkətlərini əməkdaşlıq üçün mövcud imkanlar barədə məlumatlarla təmin etmək və praktiki nəticələrə nail olunması məqsədi ilə onlara yardım göstərilməsi;
- Tərəflərin limanları arasında dəniz ticarətinin inkişafına təsir edəcək maneələrin aradan qaldırılması üzrə bir-biriləri ilə əməkdaşlıq etmək;
- simpoziumlar təşkil etmək.

## *Maddə 2*

Tərəflər onları təmsil edən və eləcə də, universitetlərin və dəniz akademiyalarının nümayəndələrinin iştirakı ilə görüş və səfərlər təşkil edəcək və həmin görüş və səfərlər zamanı təcrübə və informasiya mübadiləsi aparacaqlar.

## *Maddə 3*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yuxarıda göstərilən məqsədlərin yerinə yetirilməsi üçün Tərəflər aşağıdakılar üzrə əməkdaşlıq edəcəklər:

a) Dənizçilik sahəsində mütəmadi olaraq, nəşrlər, məlumat və sənədləşmə üzrə mübadilələrin aparılmasına nail olunması üçün tədbirlərin görülməsi;

b) Tərəflər hər iki ölkədə sərgi və yarmarkalar təşkil etməklə əlaqələri inkişaf etdirəcəklər. Hər iki tərəf nümayəndə və missiya mübadiləsi aparacaq, bazarın tədqiqi və səfərlərin təşkilində bir-birlərinə yardım göstərəcək, dənizçilik üzrə seminarlar təşkil edəcək, danışıqlar və digər zəruri fəaliyyətlər həyata keçirəcəklər;

c) Tərəflər bu Anlaşma Memorandumunun yerinə yetirilmə metodlarının yoxlanılması və hər iki ölkə arasında dəniz əlaqələrinin inkişaf etdirilməsi məqsədi ilə vaxtaşırı görüşlər təşkil edəcəklər. Görüşlərin dəqiq tarixi və yeri qarşılıqlı razılıq əsasında müəyyənləşəcəkdir;

d) Tərəflər təlim və tədqiqat sahəsində institusional əməkdaşlığı təşviq edəcəklər.

## Maddə 4

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Anlaşma Memorandumuna onun ayrılmaz hissəsi olan və 5-ci maddədə müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca Protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

## Maddə 5

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsi ilə alındığı tarixdən qüvvəyə minir. Bu Anlaşma Memorandumu 5 il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı 6 ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılacaqdır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 2009-cu il 8 iyul tarixində, hər biri Azərbaycan, ərəb və ingilis dillərində, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı olduqda ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

| Azərbaycan Respublikasının<br>Dövlət Dəniz Administrasiyası adından<br>(imza) | Suriya<br>Gəmiçilik Palatası adından<br>(imza) |
|---|---|

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 avqust 2009-cu il, № 8 (146), maddə 661) («VES Consultancy» LLC).***

***Azərbaycan Respublikası Prezidentinin 27 avqust 2009-cu il tarixli, 453 nömrəli sərəncamı ilə təsdiq edilmişdir («VES Consultancy» LLC).***

*© VES Consultancy LLC*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional